İSSN-0207-4710
2013-cü il

# GÖYƏRÇİN

11





Hekayə



Nağıl



Şeir

## RAFİQ YUSİFOĞLU



### AZƏRBAYCAN BAYRAĞI

Bizim bayraq meydanı
Şərəf-şan meydanıdır.
Üçrəngli bayrağımız
Yurdumuzu tanıdır.

O, vətən göylərində
Əzəmətlə ucalır.
Qəhrəmanlar, igidlər
O bayraqdan güc alır.

Dalğalanır, elə bil
Küləklərlə yarışır.
Azərbaycan bayrağı
Zirvələrə yaraşır...

Rəssam
Fidan

### SÜRÜŞƏN YARPAQLAR

Yarpaqlar tökülməmiş
Yağan qar örtüb yeri.
Elə bil ki, tərs düşüb
Payızla qışın yeri.

Bu ilki qışın rəngi
Deyil təkcə ağ, qara.
Sarı-sarı yarpaqlar
Naxış salıb ağ qara.

Yel əsir, bu lövhəyə
Hamı baxıb gülüşür.
Uçan yarpaqlar sanki
Qar üstündə sürüşür...

### LÖVHƏ

Bu gölün dövrəsində
Uca dağlar, yamaclar...
Suda özünə baxıb,
Qürrələnir qayalar,
Qürrələnir ağaclar.

Kölgələr qorxutmayır
Suda üzən balığı.
Göl ağaclara baxıb,
Unudur tənhalığı...

Tanrı bu gözəlliyi
Yurduma pay göndərib.
Düşən əkslər bu gölü
Laləzara döndərib...

### NƏHƏNG QUŞ

Durub gendən baxıram,
Bu quş bənzəyir dağa.
Göydə uça bilsə də,
Qona bilməz budağa...

Aşağı enəndə də
Sıxmaz qanadlarını.
Heç yerdə duranda da
Yığmaz qanadlarını.

Hey yarır buludları,
Uçuşundan qalmır o.
Nəhəng qanadları var,
Ancaq qanad çalmır o.

Yaydan ayrılan ox tək
Yerdən qalxıb süzər o.
Səma okeanında
Balina tək üzər o.

İşıqları bərq vurur,
Bir uçan səyyarədi.
O adi bir quş deyil,
Gözəl bir təyyarədi...

### YUPİTER

Uçuşan planetlər
Kainatı bəzəyir.
Yupiter bizim Yerin
Qalxanına bənzəyir.

O olmasa kim tutar
Göydən gələn daşları?
Yeri aşsüzən edər
Meteor yağışları...